Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Layihənin istiqaməti: "İctimai və dövlət maraqlarının müdafiəsi"**

# Ermənilər tərəfindən həyata keçirilən tarixi cinayət

## Bu hadisələri, onların dərslərini unutmağa haqqımız yoxdur



■ FİZULİ İBRAHİMZADƏ
Tarix üzrə fəlsəfə doktoru, dosent

Əvvəli ötən sayımızda

**Belə tükürpədici mənzərələrə Qafqazın bütün iri şəhərlərində rast gəlmək olurdu. Ermənilər heç bir halda qadınlara, uşaqlara, qocalara rəhm etmirdilər. Bütün bu faciələrə rəvac verən erməni ziyalılarından Nalbandiyanın erməni gənclərinə vəsiyyətində deyilir: "Ey erməni, əgər sən küçədə zəhərli ilan görüb öldürməyibsənsə, eybi yoxdur, ilandır... lakin türk görüb öldürməyibsənsə, satqınsan, vicdansızsan, xalqın düşmənisən, erməni deyilsən..."**

1913-cü ilin payızında çar sülaləsi üzvlərinin Cənubi Qafqaza gəlişi ilə bağlı çar II Nikolay erməni xalqına müraciətində deyirdi: "Siz o zaman xoşbəxt ola bilərsiniz ki, Konstantinopol (indiki İstanbul) bizim paytaxtımız olsun, Bosfor və Dardanel bizim olsun. Onda Cənubi Qafqazda, Kiçik Asiyada Böyük Ermənistan dövləti yaradılacağını Sizə söz verirəm". Bütün bunlar 1890-cı ildə yaradılan Daşnak Partiyasının planları ilə üst-üstə düşdüyündən, onlar 1914-cü ilin axırlarında Osmanlı-Rusiya cəbhəsində vəziyyəti kəskinləşdirdilər. 1914-cü ilin dekabrında Qars ətrafında -Sarıqamışdakı döyüşlərdə, bir yandan rusların silahla təchiz olunması, o biri yandan isə sərt qış 90 min Osmanlı əsgərinin əsir alınmasına gətirib çıxardı. Bundan ruhlanan ermənilər 1915-ci ildə rus ordusunun gücü və köməyi ilə Osmanlı ərazisində yüz minlərlə türk əsgərini qıraraq, türk kəndlərini yerlə-yeksan edərək əsl soyqırımı törətdilər.

Rusiya imperiyasına nökərçilik edən və ona xilaskarı kimi baxan Daşnaksütyun Partiyası Birinci Dünya müharibəsindən (1914-1918) "Böyük Ermənistan" uğrunda mübarizə üçün istifadə etmək məqsədini güdürdü. Hətta müharibənin əvvəllərində bir çox erməni xadimləri rus hökumətinə müraciət edərək "Böyük Ermənistan" uğrunda döyüşməyə hazır olduqlarını bildirmişdilər.

Erməni millətçilərinin Azərbaycana qarşı təşkil etdikləri fitnəkarlıqdan biri də 1918-ci ilin yanvarında baş vermişdi. Onlar Qafqaz cəbhəsindən vətənə qayıdan rus əsgərlərini Şamxor (indiki Şəmkir) və Dəllər stansiyaları arasında Zaqafqaziya, xüsusən gürcü və azərbaycanlı silahlı dəstələri ilə toqquşdurmuşdular.

Bu cinayətin əsas səbəbkarları ermənilər idi. Azərbaycan ərazisindən keçib gedən və erməni fitnəsinə cəlb edilən rus əsgərlərinin bir çoxu Bakıda məskunlaşdılar. Sonralar onlar Bakıda 1918-ci il mart hadisələrində dinc əhaliyə qarşı fəal iştirak etdilər.

Təsadüfi deyil ki, 1915-ci ildə ermənilər tərəfindən bünövrəsi qoyulan soyqırımı 1918-ci ilin martında Osmanlı ərazisində yenidən davam etdirildi, heç bir günahı olmayan 7 mindən artıq əhali martın 11-12-də qətlə yetirildi. Bundan sonra ermənilər daha da azğınlaşaraq həmin il martın 16-18-də Cənubi Azərbaycanın Xoy, Mərənd, Urmiya kimi iri şəhərlərində müsəlman qırğınları törətdilər, müsəlman əhalisinə qarşı soyqırımı etdilər. Cənubi Azərbaycanda hətta bu gün də "Urmiya fəlakəti" ifadəsi qalır. Bu qırğınlar nəticəsində heç bir günahı olmayan minlərlə azərbaycanlı qətlə yetirilmişdir.

1918-ci ilin martı tariximizə dəhşətli bir faciə, azərbaycanlıların kütləvi soyqırımı kimi daxil oldu. Daşnak Stepan Şaumyanın rəhbərliyi və qaniçən Andronik, Lalayan, Hamazasp və Karqanovun başçılığı ilə xalqımıza qarşı başlanan bu qırğın, demək olar ki, bütün Azərbaycanı bürümüşdü. Xoy, Mərənd, Bakı, Şamaxı, Quba, Göyçə, Zəngəzur, Naxçıvan, Lənkəran, Göyçay, Gəncə, bir sözlə, yurdumuzun bütün bölgələrində daşnak ermənilərinin silahlı dəstələri qırğınlar törətdi. Qırğınlar zamanı 15-20 min azərbaycanlı öldürmüşdü. Təkcə 1918-ci il martın son günü ərzində Bakıda aramsız davam edən soyqırımı zamanı 12 mindən çox günahsız azərbaycanlı qanına qəltan edildi.

Erməni vəhşiləri tərəfindən 1918-ci ildə Ağsu, Kürdəmir və Lənkəranda 130, Şamaxıda 58, Qubada 112, Gəncədə 272, Zəngəzurda 115, Qarabağda 157, İrəvan quberniyasında 211, Bəyazitdə 7, Sürməlidə 75, Eçmiədzində 84, Qarsda 62 yaşayış məntəqəsi yerlə-yeksan edilib, əhalisinin çoxu qırılıb, sağ qalanlar da didərgin salınıb.

Sağ qulağı kəsik erməni Xmbapeti, erməni xalqının üzdəniraq "milli qəhrəmanı" Andronik Ozanyan Naxçıvan qəzasında, Şərurda müsəlmanlarının başına hansı oyunları açmamışdır? İrəvan qəzasının müsəlmanlarına qarşı vuruşan erməni qoşunlarına köməyə göndərilən Andronik Ordubad tərəfindən keçib Zəngəzur qəzasına daxil olan zaman kəndlərin üçdə iki hissəsi dağıdılmış, sakinləri məhv edilmiş, yandırılmış, əmlakı isə oğurlanmışdır.

Andronikin necə qəddar, zalım, qaniçən olduğuna, insanlıq tarixində görünməyən ağır işgəncələr verdiyinə inanmayanlara məsləhət görərdik ki, görkəmli türk alimi Camal Anadolunun "Erməni dosyası" kitabını (İstanbul, 1982-ci il), Əhməd Təbrizlinin "Dağlıq Qarabağın tarixi və ona dair sənədlər" əsərini (AFR "Dağyeli" nəşriyyatı, 1989-cu il) oxusunlar. Onda bilərlər ki, Andronik Türkiyədə və Azərbaycanda necə ağlasığmaz cinayətlər törədib.

Tarixin bu faktlarını danan və unudan ermənilər bu gün onlara qarşı edilən soyqırımından danışırlar. Halbuki, yaddaşımızın yaralı səhifələri erməni daşnaklarının törətdiyi vəhşiliklərdən analoqu olmayan faktlar söyləyir.



Ürək ağrısı ilə bildiririk ki, Azərbaycan tərəfi 1918-ci ildə İrəvan ərazisinin ermənilərə güzəşt edilməsinə razılıq verib. Bu, sonrakı dövrlərdə ermənilərin torpaq iştahasını artırıb. 1918-ci ilədək 9,8 kv.km. sahəsi olan qondarma İrəvan vilayəti 1920-ci ildən sonra Azərbaycan torpaqları hesabına genişləndirilərək ərazisi 29,8 min kv.km-ə çatıb. Elə bu laqeydliyin, biganəliyin nəticəsində də 1920-ci ildə Yeni Bəyazid qalasının Basarkeçər mahalı, İrəvan qəzasının Vedibasar mahalı və Gəncə quberniyasının Zəngəzur qəzası Ermənistana verilib. 1920-ci ildə Qazax qəzasının cənub hissəsi də Ermənistan ərazisinə qatılaraq Dilcan qəzası yaradılıb. Bu xəyanət nəticəsində 1922-ci ildə Göyçə, Dilican əraziləri, 1929-cu ildə Naxçıvanın 9 azərbaycanlılar yaşayan ərazisi və Qazaxın 5 min hektar torpaq sahəsi, Cəbrayılın Nüvədi, Ernəzir və Tuğud kəndləri Ermənistana verilib. Hələ bu azmış kimi, İkinci Dünya müharibəsindən sonra - 1946-cı ildə Azərbaycanın 4 min hektar meşə sahəsi qeyri-şərtsiz Ermənistana bağışlanıb.

1946-cı ildə Suriya, Livan, Yunanıstan, Bolqarıstan və Rumıniyadan 50 900, 1947-ci ildə Fələstin, Suriya, Fransa, ABŞ, Yunanıstan, Misir, İran və Livandan 35 400 erməni köçürülərək Ermənistanda yerləşdirilmişdir. Bunun əvəzində isə 1948-1953-cü illərdə Ermənistandan 144 654, 1948-ci ildə 24 631, 1949-cu ildə 54 373 və 1950-ci ildə 65 650 nəfər azərbaycanlı öz ata-baba torpaqlarından didərgin salınıb və bu zorakılığın qarşısını alan olmayıb. Bunun da nəticəsidir ki, Ermənistan Azərbaycanın 114 min kv.km ərazisindən 27,4 kv.km-ni hissə-hissə ələ keçirib.

1988-ci ilin noyabrından başlayaraq cəmi iki həftə ərzində Qərbi Azərbaycanda yaşayan əhali vəhşicəsinə öz dədə-baba torpaqlarından qovuldu. 178 kəndin azərbaycanlı əhalisi soyqırımına və deportasiyaya məruz qaldı. Həmin vaxt 200 mindən çox azərbaycanlı öz dədə-baba torpaqlarından didərgin salınıb. Köçürülmə zamanı 216 nəfər həlak olub, onlardan 41 nəfər döyülərək qətlə yetirilib, 2 nəfərin başı kəsilib, 11 nəfər diri-diri, 2 nəfərin isə cəsədi yandırılıb, 1 nəfər asılıb, 3 nəfər doğranıb, 29 nəfər maşının təkərləri altına qoyulub, 16 nəfər odlu silahla öldürülüb, 49 nəfər dağlarda donub, 8 nəfər itkin düşüb, 1 nəfər elektrik cərəyanı ilə öldürülüb, 1 nəfər özün öldürüb, 10 nəfər infarktdan ölüb (1-i hamilə qadındır). Həlak olanların 57-si qadın, 23-ü uşaqdır (Faktlar Azərbaycan Respublikasının DİN-nin istintaq materiallarından götürülüb).

1990-cı ilin yanvarında SSRİ-nin o zamankı rəhbərliyi erməni separatçılarının yedəyində gedərək xalqımıza qarşı qırğın törətdi. Bu həríslik o yerə çatdı ki, 1988-1993-cü illərdəki hadisələr zamanı Dağlıq Qarabağ və onun ətrafındakı rayonlar da namərd qonşularımız tərəfindən işğal olundu. Ermənilər tərəfindən Xocalı faciəsi törədildi. Bu, ermənilərin Azərbaycan xalqına qarşı yönəldilmiş növbəti soyqırımı siyasəti idi. 1992-ci il fevralın 26-da Xocalı bütünlüklə ermənilər tərəfindən dağıdıldı. 613 nəfər dinc soydaşımız öldürüldü, 56 nəfər diri-diri yandırıldı, 112 nəfər itkin düşdü, 6 ailə tamamilə məhv edildi, 487 nəfər şikəst edildi, 1275 nəfər əsir aparılaraq zülmə məruz qaldı. Fransız jurnalisti Jan-İv Yunet yazır: "Mən müharibədə çox şeylər olduğunu, alman əsgərlərinin qəddarlığını eşitmişəm, amma ermənilər onları ötüb keçiblər. Onlar 5-6 yaşlı uşaqları, dinc adamları vəhşicəsinə öldürürlər".

Məkrə bax! Ermənilər indiki Ermənistan Respublikasının yerləşdiyi Türkiyə və Azərbaycana məxsus torpaqları tutduqdan sonra indi də Naxçıvanı da ələ keçirməyə cəhd göstərirlər. Daşnaklar özlərinə xas olan ənənə ilə bu məsələni ardıcıl olaraq qaldırırlar. 1999-cu ilin yanvarından İrəvanda "Naxçıvan qardaşları" cəmiyyətinin fəaliyyət göstərməsi, onların "Kim Naxçıvanı istəyir?" adlı rəy sorğusu keçirməsi, "Könüllü Naxçıvan batalyonları" yaratması, "Azad Naxçıvan" adlı qəzetin nəşri, "Naxçıvan ermənilərinin milli şurası"nı yaratması məkrli düşmənimizin işğalçılıq planlarından xəbər verir. Onlar 13 oktyabr 1921-ci il tarixli Qars müqaviləsinin Naxçıvana aid olan bəndlərini qeyri-qanuni sayırlar. Ermənilərin Milli Şurası Ermənistan parlamentini Qars müqaviləsinin, Rusiya Dumasını isə Rusiya-Türkiyə (16 mart 1921-ci il) müqaviləsinin Ermənistana aid hissəsini qüvvədən düşmüş bəyan etməyə çağırırlar.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dəfələrlə qeyd etdiyi kimi, "bütün bunlar əsaslandırılmalı və tutarlı bir vasitə kimi ondan ermənilərə qarşı istifadə edilməlidir".

Ulu Öndər Heydər Əliyev 1997-ci il dekabr ayının 18-də "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" və 1998-ci il mart ayının 26-da "Azərbaycanlıların soyqırımı haqqında" fərmanları onun doğma xalqı qarşısında, günahsız yerə öldürülənlərin ruhu önündə ən böyük xidmətlərindən biridir. Bu, torpaqlarımızın işğalı, xalqımızın günahsız yerə qırılması, yaşayış məntəqələrimizin, kənd və şəhərlərimizin viran edilməsi proseslərinə tarixdə ilk dəfə siyasi qiymət verilməsidir.

Ümummilli lider Heydər Əliyevin "31 mart Azərbaycanlıların soyqırımı günü münasibətilə Azərbaycan xalqına müraciət"ində deyilir: "Soyqırımı və deportasiya prosesi mərhələlərlə, müxtəlif tarixi şəraitdə, düşünülmüş plan əsasında həyata keçirilmişdir... Soyqırımı Azərbaycan xalqına böyük siyasi, maddi və mənəvi zərbələr vurmuşdur. Bütövlükdə XX əsr ərzində 2 milyona yaxın azərbaycanlı deportasiya və soyqırımı siyasətinin ağır nəticələrini öz üzərində hiss etmişdir... Bu hadisələri, onların dərslərini unutmağa bizim haqqımız yoxdur. Tarixi yaddaşsızlıq və unutqanlıq xalqımıza baha başa gələ bilər. Azərbaycanlılara qarşı zaman-zaman törədilən və onların məkrli niyyətlərinə qarşı ayıq-sayıqlıq ruhunda tərbiyə etmək mühüm vəzifədir".

Bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yeritdiyi hücum diplomatiyası nəticəsində ermənilərin xalqımıza qarşı həyata keçirilən soyqırımına aid tarixi gerçəkliyin üzə çıxarılması istiqamətində düşünülmüş, ardıcıl iş aparılır. Ümid edirik ki, xalqımıza qarşı törədilən böyük itki, tələfat, faciələrə səbəb olan soyqırımı və deportasiyalara beynəlxalq aləmdə qiymət verilməsi tədricən təmin olunacaq, bizim haqq işimiz qalib gələcəkdir.

**Soyqırımı və deportasiya prosesi mərhələlərlə, müxtəlif tarixi şəraitdə, düşünülmüş plan əsasında həyata keçirilmişdir... Soyqırımı Azərbaycan xalqına böyük siyasi, maddi və mənəvi zərbələr vurmuşdur. Bütövlükdə XX əsr ərzində 2 milyona yaxın azərbaycanlı deportasiya və soyqırımı siyasətinin ağır nəticələrini öz üzərində hiss etmişdir... Bu hadisələri, onların dərslərini unutmağa bizim haqqımız yoxdur. Tarixi yaddaşsızlıq və unutqanlıq xalqımıza baha başa gələ bilər. Azərbaycanlılara qarşı zaman-zaman törədilən və onların məkrli niyyətlərinə qarşı ayıq-sayıqlıq ruhunda tərbiyə etmək mühüm vəzifədir**

***Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında hazırlanıb.***